## 9 May faşizm üzərində Qələbə Günüdür

# Faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu

***Azərbaycanda 9 May - faşizm üzərində Qələbə Günü kimi qeyd olunur.***

***XX əsrdə İkinci Dünya Müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olub. Ötən əsrin 30-cu illərində Almaniyada və İtaliyada yaranmış faşizm nəinki bu ölkələrin özünü, hətta bütün bəşəriyyəti təhlükə altına almışdı. Faşistlər bütün yer üzünə ağalıq etmək kimi sərsəm bir ideya ilə silahlanaraq 1939-cu ilin sentyabrın 1-də Polşaya hücum etməklə İkinci Dünya Müharibəsinə başladılar.***

İkinci Dünya Müharibəsi illərində Azərbaycan xalqı həm ön cəbhədə həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərib. Qısa müddətdə respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünümüdafiə dəstəsi təşkil olunub. 1941-1945-ci illərdə 600 mindən çox azərbaycan oğlu və qızı cəbhəyə yollanıb. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək ağır və şərəfli müharibə yolu keçib. 130-a yaxın həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfər Şərəf ordeni ilə təltif olunub. 170 min Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilib. İki dəfə So-




vet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov, Ruslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlıqları ilə xalqımızın şərəfli tarixinə yeni sətirlər yazıblar.

Respublika iqtisadiyyatının cəbhə yoluna keçirilməsi məqsədilə böyük işlər görülüb. Sənaye cəbhə üçün işləməyə başlayıb. Qısa müddətdə Bakı döyüşən ordunun ən mühüm cəbbəxanasına çevrilib. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənayemizi yanacaqla təmin ediblər.

Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə yüksək keyfiyyətli aviasiya benzini almaq üçün yeni texnologiya yaradılıb. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində o dövrə qədərki Azərbaycanın tarixində ən çox, 23,5 milyon ton neft istehsal olunub ki, bu da SSRİ-də istehsal olunan neftin 71,4 faizini təşkil edirdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları veriblər.

Qətiyyətlə demək olar ki, Bakı nefti faşizm üzərində qələbə qazanılmasında əsas amillərdən biri olub. Bunu demək kifayətdir ki, hər beş təyyarənin, hər beş tankın, hər beş avtomobilin dördü Bakı benzini ilə işləyib.

1945-ci ilin may ayının 9-da 50 milyondan artıq insanın həlak olmasının, yüz minlərlə şəhər və kəndin xarabaya çevrilməsinin günahkarı olan faşizm məğlub oldu. Fəxr edirik ki, dünyaya ölüm, aclıq, fəlakət gətirmiş faşizmin məğlub edilməsində xalqımız da şərəflə iştirak etmişdir.

İkinci Dünya Müharibəsi Azərbaycan xalqının fədakar, qəhrəman, cəsarətli olmasını bir daha sübut etdi. İkinci Dünya Müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

**Qüdət SƏMƏDOV,**
**"Qəbələ"**

# Yanğın hadisələrinin qarşısının alınmasına dair müşavirə

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Şimal-Qərb regional



Dövlət Yanğın Nəzarəti İdarəsi aprelin 25-də dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğın hadisələrinin qarşısının alınması, eləcə də meşələrin yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə Qəbələ şəhərində regional seminar-müşavirə keçirib.

Qəbələ Mədəniyyət Mərkəzində rayon icra hakimiyyətlərinin, bələdiyyələrin, meşə mühafizəsi və bərpası müəssisələrinin və fermer təsərrüfatlarının nümayəndələrinin iştirakı ilə keçirilən "Dənli və texniki bitkilərin, meşələrin yanğın təhlükəsizliyi" mövzusunda regional seminar-müşavirədə taxıl yığımına və ot tədarükünə hazırlıq, dənli bitkilərin yetişmə və məhsul yığımı dövründə yanğın təhlükəsizliyi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Həmçinin, meşə və meşə zolaqlarında yanğın təhlükəsizliyinin təmin olunması ilə əlaqədar müvafiq təşkilatlar qarşısında məsələlər qaldırılıb.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev iştirak edib.

**"Qəbələ"**

# III Respublika Xalq Teatrları Festivalında nümayiş etdirilmişdir

***"Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə İnkişafına dair Strateji Fəaliyyət Planına müvafiq olaraq III Respublika Xalq Teatrları Festivalının növbəti mərhələsi keçirilmişdir.***



İsmayıllı şəhərində təşkil edilən seçim mərhələsində Qəbələ Mədəniyyət Mərkəzinin xalq teatrı tərəfindən Azərbaycan xalq nağılının motivləri əsasında səhnələşdirilmiş "Göyçək Fatma" tamaşası nümayiş etdirilmişdir. Müsavər Qasımovun quruluş verdiyi tamaşada rolları Elşən Salehov, Xəyal Gəncimov, Afət Əliyeva, Leyla Zakirova, Aytən Rəhimova və teatrın digər aktyorları oynamışlar.

Festival çərçivəsində peşəkar rejissor və aktyorlar tərəfindən xalq teatrlarının kollektivlərinə ustad dərsləri keçirilmişdir. Dərslərdə aktyor və rejissor sənəti, səhnə danışığı və səhnə mədəniyyəti, mövzunun aktuallığı, mizanlar və səhnə hərəkətləri izah edilmiş, tamaşalara quruluş verilən zaman dövrün tələblərinin nəzərə alınması tövsiyə edilmişdir.

**Anar RÜSTƏMLİ,**
**Qəbələ Mədəniyyət Mərkəzinin əməkdaşı.**

# Məktəbdə «Oxu günü»

***UNESKO-nun qərarına əsasən hər il aprelin 23-ü beynəlxalq səviyyədə "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" kimi qeyd olunur. Bu münasibətlə hələ aprel ayının əvvəllərindən başlayaraq rayonun təhsil ocaqlarında müxtəlif tədbirlər keçirilir. Belə tədbirlərdən biri də aprel ayının 23-də "Oxu günü" adı ilə Qəbələ şəhər 4 nömrəli məktəbdə baş tutmuşdur.***

"Oxu günü" tədbirində rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, rayon icra hakimiyyətinin məsul işçisi Vüsalə Soltanova, "Qırmızı Aypara" cəmiyyəti rayon təşkilatının sədri Sədaqət Bayramova, ailə və uşaqlara dəstək mərkəzinin direktoru Günel Ağayeva, şəhər məktəblərinin müəllimləri və şagirdlər iştirak etmişlər.

Tədbiri təhsil şöbəsinin müdiri Arifə Bayramova açmış "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nün yaranma tarixi və əhəmiyyəti barədə məlumat vermişdir. O, bildirmişdir ki, ölkə Prezidenti Cənab İlham Əliyev Azərbaycan yazıçı və şairlərinin, dünya klassiklərinin kitablarının Azərbaycan oxucusuna çatdırılması



işinə böyük diqqət və qayğı göstərir. Bizim vəzifəmiz isə həmin kitabların intellektin inkişafında əvəzolunmaz rolunu izah etməklə gənc nəslə sevdirməkdir. Bu günkü tədbir də həmin məqsədə xidmət edir.

Tədbir şəhər 2 nömrəli məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam etmişdir. Kompozisiyada müxtəlif dram əsərlərindən səhnəciklər nümayiş etdirilmiş, ulu öndər Heydər Əliyevin kitab haqqında dediyi kəlamlar, klassiklərin əsərlərindən nümunələr və yeni şeirlər səsləndirilmişdir.

Sonda uşaq və gənclər inkişaf mərkəzinin "Təbəssüm" qrupunun ifasında "Bayraq" rəqsi ifa olunmuşdur.

**Nəzakət ABDULLAYEVA,**
**şəhər 2 nömrəli məktəbin müəllimi.**
**Səhrab Umuyev (foto).**

# Qanvermə aksiyası təşkil olunub

Qəbələ Müalicə Diaqnostika Mərkəzində qanvermə aksiyası keçirilib.

"Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına uyğun olaraq keçirilən aksiyada rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların işçiləri, gənclər, o cümlədən ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Aksiyada Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı öncədən müəyyən olunub. Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunması nəzərdə tutulub.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin vətəndaşlıq borcu olduğunu qeyd ediblər.

**"Qəbələ"**